# MƏMMƏDOV MÖVSÜM ŞAHİN OĞLU



Məmmədov Mövsüm Şahin oğlu 1967-ci il iyunun 6-da Xocalı rayonunun Kosalar kəndində dünyaya göz açmışdır. Canhəsən kənd ibtidai məktəbini bitirdikdən sonra orta təhsilini 1984-cü ildə doğma kəndində başa vurmuşdur. 1985-ci ildə ordu sıralarına çağırılmışdır. 1987-ci ildə ordudan tərxis olunaraq Vətənə dönmüşdür. O, 1988-ci ildə Şuşa Elektrik Şəbəkəsi Birliyində ilk əmək fəaliyyətinə başlayır. O vaxtlar Azərbaycanda vəziyyət getdikcə ağırlaşırdı. Ermənilərin Azərbaycan torpaqlarına hücuma başladığı dövrdə Dağlıq Qarabağ və ətraf rayonlarda yeni-yeni polis bölmələri yaradılmağa başladı. 1990-cı ildə Mövsüm Məmmədov da Xocalı rayonunun Meşəli kəndində yaradılmış polis bölməsinin daxilində düşmənə qarşı mübarizə aparmağa başlayır. O, erməni işğalçılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə vuruşmuş və Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində böyük şücaət göstərmişdir. O, 1994-cü ildə Şuşa Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti bölüyünə komandir, 1995-ci ildə onu PPX-nin komandiri vəzifəsinə təyin edilir. M.Məmmədov 1998-ci ildə DİN-nin Polis Akademiyasını bitirmişdir. O, indi Şuşa Rayon Polis Şöbəsinin xidmət üzrə rəis müavini vəzifəsində çalışır. Polis mayorudur. Ailəlidir. İki övladı var. Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı fərmanı ilə Məmmədov Mövsüm Şahin oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.